*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 2* *ISSN 2663-4368*
*Səhifə: 17-24* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.2.17*

**Ədəbiyyatşünaslıq**
***Azərbaycan ədəbiyyatı tarixi***

# "Kəlniyyət" jurnalında ədəbiyyat məsələləri

**Vüqar Əhməd**
Filologiya elmləri doktoru, professor
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: vuqar.ehmed.63@mail.ru

**Annotasiya.** XX əsrin əvvəllərində uşaqları maarifləndirmək, elmləndirmək məqsədilə mütərəqqi ziyalılarımız A.A.Bakıxanov, S.Ə.Şirvani "Uşaqlarımızı savadlandıraq" ənənəsini davam etdirərək yeni üsullu məktəblər açır, uşaqların beynini yormayan, rahat, asan qavranılan dərsliklər tərtib edirdilər. Lakin burada uşaq mətbuatının xidmətlərini də unutmaq olmaz. Qabaqcıl ziyalılarımız uşaqların zehnini inkişaf etdirmək, onlarda elmə, təhsilə güclü maraq oyatmaq üçün uşaq mətbuatı yaratmışdılar.
"XX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi və mədəni həyat canlanırdı: maarif, məktəb və mətbuat xalqın tələbatına çevrilmişdi. "Zənbur", "Kəlniyyət", "Babayi-Əmir", "Tuti", "Bəhlul", "Lək-lək" kimi satirik jurnalların meydana çıxması uşaq mətbuatının yaranmasına səbəb oldu. Əsrin əvvəllərindən nəşrə başlayan "Dəbistan" (1906-1908), "Rəhbər" (1906-1907), "Məktəb" (1911-1920) məcmuələri uşaq mətbuatı kimi milli uşaq ədəbiyyatının inkişafına geniş yol açdı" [9, s.93].
Bir sözlə, Seyid Əzimin istər "Əkinçi", istər "Ziya", istər "Kəşkül" qəzetlərindəki maarifçilik ideyaları təbliğ edən çıxışları onu o zaman Qafqazın yarıdan çox ərazisini əhatə edən Azərbaycanın bütün bölgələrində çox yaxşı tanıdıb sevdirmişdi. Belə ki, Mir Möhsün Nəvvab ona həcvlər yazmağına baxmayaraq, onun şeiriyyətinə çox yüksək dəyər verir, eyni zamanda istər qarabağlı, istər gəncəli, istərsə də başqa bölgələrin məclis üzvləri onu Mövlanə Füzulidən sonra türk poeziyasının nəhəngi adlandırırdılar.
**Açar sözlər:** jurnal, qəzet, uşaq mətbuatı, satira, maarifçi, publisistika

**Məqalə tarixçəsi:** göndərilib – 04.09.2024; qəbul edilib – 19.09.2024

# Literature issues in the magazine "Kelniyyet"

**Vugar Ahmed**
Doctor of Philological Sciences, Professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: vuqar.ehmed.63@mail.ru

**Abstract.** At the beginning of the 20th century our advanced intellectuals continued the tradition "Let's educate our children" of A.A.Bakikhanov and S.A.Shirvani; and in the same time they opened new method schools, prepared easy-to-understand textbooks that do not strain children's brains in order to educate the children.
We can't forget the services of the children's press here, our leading intellectuals created children's press on behalf of increase children's minds and foster a strong interest in science and education in them.
"The socio-political and cultural life revived at the beginning of the 20th century: education, school and press became a demand of the people. The emergence of magazines such as "Zanbur", "Kelniyyet", "Babayi-

Emir", "Tuti", "Behlul" and "Lek-Lek" led to the creation of children's press. The collections "Dabistan" (1906-1908), "Rehber" (1906-1907), "Mekteb" (1911-1920) that have been published since the beginning of the century paved the way for the development of national children's literature as children's press" [2, p.93]. To put it simply, Seyid Azim's writings promoting enlightenment ideas in the newspapers "Akinchi", "Ziya" as well as "Keshkul" made him very famous and loved in every region of Azerbaijan, which covered more than half of the Caucasus territory at that time. In this way, Mir Mohsun Nevvab valued his poetry very highly although he wrote hajvs (pamphlets) about him. At the same time members of the gatherings from Karabakh, Ganja and other regions called him the giant of Turkish poetry after Mevlana Fuzuli.

**Keywords:** magazine, newspaper, children's press, satire, educator, publicism

**Article history:** received – 04.09.2024; accepted − 19.09.2024

## Giriş / *Introduction*

Həsən bəy Zərdabinin Azərbaycan xalqına bəxş etdiyi "Əkinçi" qəzeti, nəinki xalqın milli məfkurəsinin formalaşmasında öz müsbət təsirini göstərdi, eyni zamanda bir sıra sənətkarları öz ətrafında toplayıb "Əkinçi" ideyalarını ədəbi-ictimai fikir aynası ilə təbliğ etməyə başladı: "1975-ci ildə Bakıda "Əkinçi" qəzetinin nəşrə başlaması Seyid Əzimin yaradıcılığının müasir məzmun, ictimai pafos qazanmasına və vətəndaş kimi formalaşmasına müsbət təsir göstərdi. Şair səsini H.B.Zərdabinin səsinə qoşdu. Ədəbi fəaliyyətini qəzetin ideya istiqamətinə uyğunlaşdırdı. Maarifçilik ideyalarını poetik dildə təbliğ etməyə başladı. O, baş mühərrirə göndərdiyi bir məktubda "Rəbiül-ətfal" ("Uşaqların baharı") dərsliyindəki şeirlərin "Əkinçi" ideyaları və mövzuları ilə yaxından səsləşməsindən söhbət açaraq yazırdı: "Öz türki-lisanımızda çox asan ibrətlərlə bir türki-kitab nəzm etmişəm. Həmin kitabdan bu bir neçə əşar ki, bundan sonra yazılacaq, yazıb xidmətüvüzə irsal elədim ki, sizin qəzetinizin məzmununda olan mətləblərə münasibdir" [6, s.173].

Seyid Əzim Şirvani bir maarifçi-publisist kimi ədəbiyyatın sıx tellərlə mətbuata bağlı olduğunu dövri mətbuatda nəşr olunan şeirləri ilə sübuta yetirirdi. Hamıya çox yaxşı məlumdur ki, o dövrdə mətbuatdan başqa, heç bir informasiya vasitəsi yox idi və Seyid Əzim Şirvani nə qədər qüdrətli şair olsa da, mətbuatsız onun tez bir zaman içində tanınması və sevilməsi müşkül məsələ idi. Bunu da hökmən qeyd etmək lazımdır ki, Seyid Əzim Şirvaninin tək Şamaxı və yaxud Bakı şairləri arasında deyil, Azərbaycanın bütün bölgələrindəki ədəbi məclis üzvləri arasında xüsusi bir hörməti var idi. Özü də onların əksəriyyəti Seyid Əzimi Həsən bəy Zərdabinin 1875-1877-ci ilərdə Azərbaycanda ilk dəfə ana dilində nəşr etdirdiyi "Əkinçi", Səid Ünsizadənin 1879-1883-cü illərdə "Ziya", Cəlal Ünsizadənin 1883-1891-ci illərdə nəşr etdirdiyi "Kəşkül" qəzetlərindən tanıyırdılar.

XX əsrin əvvəllərində, eyni zamanda uşaqları da maarifləndirmək, elmləndirməkdən ötrü mütərəqqi ziyalılarımız A.A.Bakıxanov, S.Ə.Şirvani "Uşaqlarımızı savadlandıraq" ənənəsini davam etdirərək yeni üsullu məktəblər açır, uşaqların beynini yormayan, rahat, asan qavranan dərsliklər tərtib edirdilər.

Lakin burada uşaq mətbuatının xidmətlərini də unutmaq olmaz. Qabaqcıl ziyalılarımız uşaqların zehnini inkişaf etdirmək, onlarda elmə, təhsilə güclü maraq oyatmaq məqsədilə uşaq mətbuatı yaratmışdılar.

## Əsas hissə / *Main Part*

"XX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi və mədəni həyat canlanırdı: maarif, məktəb və mətbuat xalqın tələbatına çevrilmişdi. "Zənbur", "Kəlniyyət", "Babayi-Əmir", "Tuti", "Bəhlul", "Lək-lək" kimi satirik jurnalların meydana çıxması uşaq mətbuatının yaranmasına səbəb oldu. Əsrin əvvəllərindən nəşrə başlayan "Dəbistan" (1906-1908), "Rəhbər" (1906-1907), "Məktəb" (1911-1920) məcmuə-

ləri uşaq mətbuatı kimi milli uşaq ədəbiyyatının inkişafına geniş yol açdı” [9, s.93].

Bir sözlə, Seyid Əzimin istər “Əkinçi”, istər “Ziya”, istər “Kəşkül” qəzetlərindəki maarifçilik ideyaları təbliğ edən çıxışları onu o zaman Qafqazın yarıdan çox ərazisini əhatə edən Azərbaycanın bütün bölgələrində çox yaxşı tanıdıb sevdirmişdi. Belə ki, Mir Möhsün Nəvvab ona həcvlər yazmasına baxmayaraq, onun şeiriyyətinə çox yüksək dəyər verir, eyni zamanda istər qarabağlı, istər gəncəli, istərsə də başqa bölgələrin məclis üzvləri onu Mövlanə Füzulidən sonra türk poeziyasının nəhəngi adlandırırdılar. Bu baxımdan deyə bilərik ki, mətbuatın ədəbiyyatla qırılmaz tellərlə bağlılığı inkaredilməz bir göstəricidir.

Cəlil Məmmədquluzadənin 1905-ci ildən Tiflisdə “Şərqi-Rus” qəzetində çalışması, yaratdığı “Qeyrət” mətbəəsində inqilab və azadlıq mövzularında əsərlər, şüarlar buraxması, xalq həyatını, ictimai-siyasi hadisələri dərindən öyrənməsi onu yenilikçi sənətkar kimi yetişdirdi. 1905-ci il hadisələrinin təsiri ilə o, yeni-yeni, çeşidli əsərlər yaratdı. “Poçt qutusu”, “Usta Zeynal”, “İranda hürriyyət”, “Rus qızı”, “Konsulun arvadı”, “Qurbanəli bəy” və onlarca başqa hekayələri Azərbaycan və Yaxın Şərq xalqları ədəbiyyatında yeni bir hadisəyə çevrildi. “Ölülər”, “Anamın kitabı”, “Dəli yığıncağı”, “Kamança” kimi komediyaları ədəbiyyatda yeni bir səhifə açdı, uzun zaman Azərbaycan səhnəsində oynanıldı. “Ölülər” Türkiyə, Rusiya və İranda, Orta Asiya, Volqaboyu, Şimali Qafqaz türk xalqları teatrlarında da uğur qazandı, yeni ədəbiyyat və sənət adamlarının yetişməsinə kömək etdi.

Bakıda yaranmış “Məcməüş-Şüəra”nın üzvlərinin əksəriyyəti “Füyuzat” yaranana qədər qəzəllərini, şeirlərini yalnız “Məcməüş-şüəra”nın məclislərində bir-birinə oxuya bilirdilər. Lakin Azərbaycanın qabaqcıl ziyalısı, böyük mütəfəkkiri (1864-1940) Əli bəy Hüseynzadə xeyriyyəçi, el atası Hacı Zeynalabdin Tağıyevin vəsaiti ilə 1906-cı il noyabr ayından – “Füyuzat” jurnalı nəşrə başlayandan sonra öz şeirini jurnalın səhifələrində çap etdirdi. Bundan sonra onun şeirləri təkcə Azərbaycanda deyil, Azərbaycanın hüdudlarından kənarda da tanındı. Başda M.Ə.Sabir olmaqla bütün mollanəsrəddinçi şairlər müsəlman Şərqində məhz “Molla Nəsrəddin”in sayəsində tanındılar. Ona görə də, əminliklə demək olar ki, o dövrdə ədəbiyyat qəzet və jurnallar vasitəsilə xalqa təqdim olunur, eyni zamanda xalqın maariflənməsində, gözünün açılmasında, pisi-yaxşını bir-birindən seçməsində əvəzsiz rol oynayırdı.

Məsələ burasındadır ki, Azərbaycan oxucuları Tolstoy, Höte, Russo, Monteskyö kimi görkəmli simalar haqqında nisbətən ətraflı və dəqiq məlumatı ilk dəfə “Füyuzat”da çap olunan məqalə və tərcümələrdən almışdılar. Bu da öz növbəsində mətbuatın ədəbiyyatla bağlılığını bəyan edən danılmaz faktdır.

Füyuzatçılar ədəbiyyatda romantizmi, ümumi ədəbi dil siyasətini, milli məsələlərdə ruslaşma və farslaşmaya qarşı türkçülük ideologiyasını təbliğ edirdilər ki, bu da, öz növbəsində, milli təfəkkürün oyanışında, xalqın özünü tanımasında, istiqbalı, istiqlalı uğrunda mübarizəsində olduqca əhəmiyyətli rol oynadı. Bundan əlavə, “Füyuzat” Azərbaycan ədəbiyyatının bədii-estetik fikrində romantizmin əsasını qoymuş Məhəmməd Hadi, Hüseyn Cavid, Abbas Səhhət kimi dühaların yetişməsində söz ilə ifadəsi mümkün olmayan xidmətlər göstərmişdir.

Əli bəy Hüseynzadə və jurnalla əməkdaşlıq edən digər ziyalılar xalqa anlatmağa çalışırdılar ki, buxovlardan, cəhalətdən, savadsızlıqdan qurtuluş yolu həm ilahiyyat, həm də dünyəvi elmləri mənimsəməklə mümkündür. Rus ədiblərindən M.V.Dostoyevskinin, L.N.Tolstoyun, alman mütəfəkkiri İ.V.Hötenin, məşhur Fransa yazıçısı Viktor Hüqonun, Bayronun, Azərbaycan klassiklərindən M.Füzulinin, A.Bakıxanovun əsərlərindən sitatlar gətirilir, onların yaradıcılığı, dəst-xəti haqqında söhbətlər açılırdı.

Maarifpərvər insanlarımız 1906-cı ildən etibarən, heyrətamiz bir sıçrayışla “İttifaq”, “Tərəqqi”, “Səda”, “Sədayi-haqq”, “Tazə həyat”, “Hümmət”, “Kaspi”, “Füyuzat”, “Yeni Füyuzat”, “Arı”, “Babayi-Əmir”, “Tuti”, “Məzəli”, “Kəlniyyət”, “Şəlalə”, “İrşad”, “İttifaq”, “Zənbur”, “İqbal”, “Həyat”, “Təkamül” və s. mətbu orqanları yaratmışdılar.

O dövrdə Azərbaycanın qabaqcıl ziyalıları xalqı maarifləndirmək məqsədilə, “Molla Nəsrəddin”, “Zənbur”, “Tazə həyat”, “İttifaq”, “İqbal”, “Dirilik”, “Babayi-Əmir”, “Kəlniyyət”, “Ovqati-nəfisə”, “Şihabi-saqib” və s. qəzet-jurnallarda müntəzəm çıxışlar edir, problemləri,

sıxıntıları, çatışmayan cəhətləri göstərir, xalqı birliyə, həmrəyliyə, vətənpərvərliyə çağırır, zülmə, zorakılığa qarşı mübarizəyə səsləyirdilər. Bu qabaqcıl ziyalıların dövri mətbuatda dərc etdirdikləri yazılar – məqalələr, felyetonlar, şeirlər eyni mahiyyət daşıyırdı. Onlar xalqı çar Rusiyasının əsarətindən, ədalətsizliklərdən, cəhalətdən, avamlıqdan xilas etmək istəyir, onu maarifləndirməklə istiqbalın yolunu birlikdə, elmdə-təhsildə olduğunu cürbəcür vasitələrlə bəyan edirdilər.

"Kəlniyyət" jurnalı da bu cəhətdən mühüm yer tuturdu. "Kəlniyyət"də də "Molla Nəsrəddin" kimi dərc edilmiş yazılar, əsasən, satira, həcv, nifrin və şeirin başqa forma, şəkilləri sətiraltı mənalarla xalqın problemlərini, sıxıntılarını əhatə edərək, xalqın milli özünüdərkində müstəsna rol oynayırdı.

Onu da qeyd edək ki, "Kəlniyyət" mətbu orqanının əsas ideyalarından biri də xalqı mövhumatla aldadan saxtakar din xadimlərinin ifşası idi. Lakin saxtakar din xadimlərinin ifşası heç də İslam dinini gözdən salmaq məqsədi güdmürdü. Çünki çoxuna bəllidir ki, həqiqi İslam dini ilə mövhumat arasında yerlə göy arasındakı qədər fərq mövcuddur. Əsl İslam dini müqəddəs Qurani-Kərimin mübarək ayələri əsasında sistemləşmiş bir dindir, möhvumat isə münafiq mollaların öz şəxsi mənafelərindən ötrü uydurduqları, İslam dininə aidiyyatı olmayan bir cəfəngiyyatdır.

Buna rəğmən, ədəbi-məclislərin tədqiqatçısı, filologiya elmləri doktoru Nəsrəddin Qarayev 1971-ci ildə hələ sosializm ideologiyası qüvvədə olarkən yazırdı:

"Lakin 1880-90-cı illərdə maarifçiliyin ideya mövqelərində yaranan dəyişikliklər, materializm və ateizm prinsiplərindən uzaqlaşmaq və irticanın güclənməsi nəticəsində yenidən İslama, onun "təntənəli keçmişinə", "vətənin ötən günlərinə" qayıtmaq meyilləri ədəbi-estetik fikrin yayılan formalarına da, onun məzmununa da güclü təsir göstərir. Bu cəhətdən həmin dövrdə sürətlə bir-birinin ardınca müxtəlif məqsədli və məsləkli ədəbi məclislərin yaranmasını səciyyəvi bir hal kimi göstərmək olar" [5, s.5].

"Kəlniyyət" jurnalının ilk nömrəsi 1912-ci il may ayının 24-də Bakıda nəşr edilmişdir. Jurnalın müdiri Hacı İbrahim Qasımov (1886-1936), imtiyaz sahibi isə Seyid Hüseyn Sadiq (1887-1938) idi. Jurnal "Orucov qardaşları" mətbəəsində və "Kaspi" tipolitoqrafında çap olunmuşdur. Məzhəkə məcmuəsi idi. 8 səhifəli, şəkilli, satira və karikatura jurnalı olan "Kəlniyyət"in 1912-ci ildə 31 nömrəsi çıxmış, 1913-cü il fevral ayının 10-da isə 6-cı nömrəsindən sonra bağlanmışdır. Cəmi 37 nömrəsi çıxmışdır.

"Hacı İbrahim Qasımov 1907-ci ildə Haşım bəy Vəzirovun redaktorluğu ilə çıxan "Təzə həyat" qəzetində fəaliyyətə başlayıb. Daha sonra müstəqil jurnalistika həyatına davam edərək 1911-ci ildə "Məlumat", 1914-1915-ci illərdə "İqdam", 1914-1920-ci illərdə isə "Bəsirət" qəzetinin redaktoru olub" [13].

Hacı İbrahim Qasımov Azərbaycan Xalq Demokratik Cümhuriyyətinin fəal üzvlərindən biri idi. İstiqlal mübarizəsi zamanı yoldaşlarının etimadını o qədər doğrultmuşdu ki, onu ədib və mühərrir cəmiyyətinin sədri seçmişdilər və o qədər nüfuz qazanmışdı ki, Azərbaycanın rifahını, elmini, təhsilini, iqtisadiyyatını yüksəltmək üçün Cümhuriyyət üzvləri bir araya gələrkən yığıncaqlara, iclaslara sədrlik edirdi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə "Yaşıl qələm", "Qırmızı qələmlər" adlı yaradıcılıq cəmiyyətləri yarandı. Həmin dövrdə "Füyuzat" ədəbi məktəbinin orqanı olan "Bəsirət" qəzetinin bir elanında belə bir yazı var idi:

"Pəncşənbə günü iyul ayının 6-da ədib və mühərrir cəmiyyətinin iclası vaqe oldu. Cəmiyyətin sədri Hacı İbrahim Qasımov cənabları təzə demokratik üsulu üzərinə təşkil ediləcək milli təşkilat komitəsində altı nəfər mühərrirə yer verildiyi bəyan olunan altı nəfərin intixabını məcalisə təklif edir. Bu barədə bir qədər danışdıqdan sonra örtülü səs ilə zildəki şəxslər intixab edildilər; Məhəmməd Əmin Rəsulzadə, Oruc Orucov, Hacı İbrahim Qasımov, Seyid Hüseyn Sadiq, Ceyhun bəy Hacıbəyov, Əli Paşa Hüseynzadə" [2].

Hacı İbrahim Qasımov həm də satirik şair idi və bir sıra satiralarını M.Ə.Sabirin təsiri ilə yazırdı. Lakin "Babayi-Əmir" jurnalında bəzən Ə.Müznibin satiraları da bənzətmələr yaradırdı. Məsələn "Əliabbas Müznib əfəndiyə bənzətmə və tövhə" satirasında H.İ.Qasımov millətin gözünü duman tutduğunu, qəflətdən oyanmadığını bu şəkildə ifadə edirdi:

*"Çünki həfzi-nişanəsi yalnız onun qəflətindədir.*
*Ol səbəbdən etina etməz, nəzər olsan da sən!*
*Çox da bin il var ki, olmuş əğnəbi məfkurəsi,*
*Əqlə gəlməz, can verib gər, parə-parə olsan da sən.!* [7, s.43]

"Kəlniyyət" jurnalının yaranması, fəaliyyəti həm də Azərbaycanda hekayə janrının inkişafında böyük əməyi olan, nəfis hekayələr yaradan Seyid Hüseynlə (1887-1937) bağlıdır. Bir çox qabaqcıl ziyalılarımız kimi, xalqın inkişafını elm-təhsildə görən Seyid Hüseyn "Kəlniyyət"dən əlavə, "Bəhlul" və "Qurtuluş" jurnallarını nəşr etdirmişdir.

"Çağdaş Azərbaycan nəsrinin, xüsusilə onun hekayə janrının inkişaf tarixi Seyid Hüseynin adı ilə sıx surətdə bağlıdır. Onun nəsri çağdaş - Azərbaycan ədəbiyyatının təşəkkülü və inkişafı dövrünün ən parlaq səhifələrindən biridir. Seyid Hüseynin 20-ci illərin sonundan 30-cu illərin birinci yarısınadək yazdığı hekayələri o zaman oxucuların dillərində əzbər olmuş, indi də öz təravətlərini saxlamış, müasirliyini itirməmiş, müəllifə hekayə ustası kimi şöhrət qazandırmışdır. Hüseyn Mir Kazım oğlu "Tazə həyat" və "Kaspi" qəzetlərinin mətbəələrində mürəttib olmuş, şərikli "Bəhlul", "Kəlniyyət" və "Qurtuluş" jurnallarını nəşr etdirmişdir" [10].

"Seyid Hüseynin ədəbi yaradıcılığa başlaması müstəqil həyata, əmək fəaliyyətinə qədəm qoyduğu ilk illərə təsadüf edir. 1908-ci ildən etibarən o, əvvəlcə ara-sıra, sonralar isə müntəzəm olaraq qəzetlərdə, jurnallarda "Kazımoğlu", "Hüseyn Sadiq", "Seyid Hüseyn", "Seyid Hüseyn Sadıqzadə", "Mühərrir" imzaları ilə ədəbi-tənqidi məqalələr dərc etdirmiş, Bakının ictimai həyatında, mədəni-maarif cəmiyyətlərinin fəaliyyətində yaxından iştirak etmiş, 1927-ci ilə kimi müvəqqəti-mühərrir kimi tanınmışdır. Onun "Gələcək həyat yollarında", "Şirinnaz", "İki həyat arasında", "Yatmış kəndin qış gecələrində", "Gilan qızı" və s. hekayələri, "Altun", "Yalan", "Gözəllik nədir?" və s. məqalələri oxucuların diqqətini cəlb edir. Müəllifin müxtəlif illərdə bir çox kitabı nəşr olunmuşdur: "Ağ valideyn, yaxud zavallı Məşədi Zaman" (1911), "Qaçaq oğul, yaxud ata məhəbbəti" (1915), "Yeni həyat yollarında" (1928) və s. [11].

"Kəlniyyət" öz səhifələrində daim satirik şeirlərə də yer verirdi. Jurnalın mühərrirləri arasında "Mürid", "Yetim cücə", "Dilənçi", "Bibi Raziyə", "Bambılı", "Kefsiz" və s. təxəllüslərə rast gəlinir. Bunlardan bir neçəsinin şəxsiyyəti məlumdur. Mollanəsrəddinçilərdən Əli Nəzmi "Kefsiz", Əli Məhzun İrəvani "Yetim cücə" təxəllüsü ilə bu jurnalda da iştirak edirdilər. On üçüncü nömrədə verilən "Gəncədə" adlı satirik şeir, on birinci nömrədə gedən "Ay bacı", üçüncü nömrədəki "Dəng olmuşam", ikinci nömrədəki "Eyibdir" şeirləri o dövrün bir sıra mühüm nöqsanlarını açıb göstərirdi. "Gəncədə" şeirində xalqın qanını soran burjuaziya satira atəşinə tutulmuşdu. "Dəng olmuşam" şeirində də yuxarı təbəqələrə nifrət hissi vardı [12].

"Kəlniyyət"in səhifələrində Avropa və Qərbi Avropanın müstəmləkəçi ölkələrinin dünya xalqlarına, xüsusən Asiya və Afrikanın zəhmətkeşlərinə tutduqları divan, eyni zamanda təbii sərvətlərin çapıb-talanması cəsarətlə ifşa olunurdu.

"Molla Nəsrəddin" kimi "Kəlniyyət" də vacib beynəlxalq hadisələri işıqlandırmağa səy göstərirdi. Jurnalda daha çox Yaxın Şərqdə, xüsusən İran və Türkiyədə baş verən hadisələr işıqlandırılırdı. Mollanəsrəddinçilərin fəal əməkdaşlıq etdiyi "Kəlniyyət" satirik jurnalı Azərbaycandakı ictimai ədalətsizliyə, burjua-mülkədar ağalığına, dinə və cəhalətə qarşı xeyli iş görmüşdür [1, s.43].

Təbii ki, N.Axundov "dinə və cəhalətə qarşı" ifadəsini sovetlər dönəminin dinə qarşı apardığı ateizm ideologiyasının tələbləri altında işlətmişdi. Əks təqdirdə sadəcə olaraq, "cəhalətə qarşı" sözünü işlədəcəkdi, çünki həqiqi İslam dini məhz cəhalətin gətirdiyi bəlaların qarşısını almaqdan ötrü mübarizə modeli idi.

Bunu da qeyd etmək lazımdır ki, XX əsrin əvvəllərinin bir sıra nüfuzlu ziyalıları "Molla Nəsrəddin"də iştirak etməklə yanaşı, "Kəlniyyət"ə də üz tuturdular. Bunun səbəbi isə hər iki jurnalın ideya birliyindən irəli gəlirdi. Bu barədə ədəbiyyatşünas-alim Bədirxan Əhmədov yazır: "Abbas Səhhət, Əli Razi Şəmçizadə, Əliqulu Qəmküsar, Cabbar Əsgərzadə, Əli Nəzminin jurnalda iştirakı, felyeton və şeirlərini dərc etdirməsi onun satirik sanbalını bir qədər də artırırdı. Onların həm "Kəlniyyət", həm də "Molla

Nəsrəddin"də iştirakı iki jurnal arasında ideya, məqsəd yaxınlığından da xəbər verirdi" [3, s.56].

"Kəlniyyət" jurnalının birinci səhifəsində böyük şriftlərlə "Kəllə" sözü verilmişdir. Bu, baş məqalənin sərlövhəsidir. Jurnalın oxucu ilə ilk söhbəti belə başlayır:

KƏLLƏ

Yaxşı oxu, Kəllə deyirəm ha! Nə kəllədir və nə kəllə, sözüm kəllə üstündədir. Hərçənd müsəlmanlar elmi, maarifi, tərbiyəni ayaqdan başə düşən kimi mən də gərək məqsədimizi başlıyım. Amma çünki, Yeldögən şəhərində oluruq və həmişə də yel əsən tərəfə burnumuzu çeviririk, bu cəhətə, bu səfərligə biz də ayağı buraxıb kəllədən danışmağa məcbur olduq. Ay kişi, bəlkə kəllə deyəndə şəhərimizdə qoçuların bir-biri ilə kəllə-kəlləyə gəlməsini bilirsən və yainki Allah ölənlərinizə rəhmət eyləsun, kəlləbaz Abbas dayının kəlləpaçasını başa düşərsən, xeyir şəhv kəzvar. Çünki o kəllədən danışsam onda gərək bir də mütərcim tapam ondan ötəri ki, bizim Qafqazımızda dillərimiz o qədər həddarpəddardır ki, məsəla, mən Bakılı və yainki Naxçıvanlı ləhcəsilə kəllə desəm, Qubalı başa düşməz. Odur ki, bağışlayasan, bizim dilimiz də başayaqdır. O cəhətdən mən dəxi yadına salıram ki, xeyr, o kəllədən sözüm yoxdur, mənim fikrimdəki Bakı kəlləsidir ki, haçan meydana çıxır ki, bu ağız baş ilə oynayan kəllələr, mənəm-mənəm deyib ortaya düşməzlər. Hərçənd bizlər o qədər sahib əfkar adamıq ki, kəlləsiz də iş görə bilirik. Çünki, kəlləsiz iş görmək çox asandır, amma eylə ki, kəllə oldu, onda gərək gündə on iki dəfə gərək Kəllə kəllə gələk.

Kəlniyyət: Kəlniyyət – "Zəmanə səninlə uyğun olmaz, sən məvacibincə zəmanəyə uyğunlaş". Camaatımızın rayına baxıb məqsədimiz ancaq başdan ayağacan ğərəzişəxs olacaqdır. Mollanümalara mənəm-mənəm deyən ürəfaya təhsin deyib xana, bəyə, tacirə məhz cibişdan xatirəsi üçün məddaxlıq edəcəyik. Həqiqi ürəfa və üləmayə nifrət edəcəyik, çünki zəmanəmiz baş-ayaq zamanıdır, atalar demişkən "şər deməsən xeyir gəlməz" [8, s.8].

Jurnalın karikaturalarının çəkilməsində Beno (Benedikt Telinqator), Əzim Əzimzadə və Xəlil bəy Musayev yaxından iştirak etmişlər. Ə.Əzimzadə öz karikaturalarını "Əzim", "Əzimov", "Ə. Ə" imzaları ilə verirdi. "Kəlniyyət"in 7-ci sayında karikaturada mollaların tamahkarlığı və rüşvətxorluğu göstərilir. Müəllif mövzu olaraq xalq arasında işlədilən "Başı mollanın, leşi mollanın, iki qabırğa, bir dişi mollanın, qaldı dörd əl-ayağı, onlarla da var işi mollanın" zərb-məsəlindən istifadə etmişdir.

"Akademik İsa Həbibbəylinin araşdırmalarında vurğulanır ki, "Molla Nəsrəddin" ədəbi məktəbi çox geniş anlayış olub, özündə bir neçə yaradıcılıq istiqamətini, çoxsaylı yaradıcı qüvvələri birləşdirirdi: "Bir çox yaradıcılıq sahələri "Molla Nəsrəddin" ədəbi məktəbi içərisində, onun hüdudları daxilində xüsusilə inkişaf edərək daha qabarıq şəkildə nəzərə çarpıb. Beləliklə, vahid ədəbi məktəb daxilində bir neçə məktəb, necə deyərlər, məktəb içində məktəblər yaranıb. "Molla Nəsrəddin" satirik şeir məktəbi, mollanəsrəddinçi yeni nəsr, satirik publisistika və karikatura məktəbləri "Molla Nəsrəddin" ədəbi məktəbinin üzvi tərkib hissələridir" [14].

Yuxarıda qeyd olunduğu kimi, xalqın maariflənməsində də "Kəlniyyət" jurnalının xüsusu yeri var idi:

DƏNG OLMUŞAM

*Mollanı, hacını, bəgi mən sögməkdən dəng olmuşam,*
*Arifi, mən-mən deyən bomboş görüb təng olmuşam.*
*Mən adam axtarmaqdan mütləq qıçı ləng olmuşam.*
*Qubada molla Yava kimi ilə çəng olmuşam,*
*İmdi də səlyanlı tək lap maili-bəng olmuşam.*

*...Sən əgər "Əyyar"san xalq istəməz əyyar ola,*
*Ay qəzetçi, əl çəküz məskən sizə həpnar ola.*
*İstəməz xalis müsəlman sizlər ilə yar ola.*
*O məgər axmaqmıdır kafir olub murdar ola,*
*O, deyir boş-boş danışmaqdan başı dənk olmuşam. [8, s.23]*

**"Dilənçi"**

Yuxarıda qeyd olunduğu kimi, XX əsrin əvvəllərində Azərbaycanda mətbuat fövqəladə şəkildə inkişaf etmişdi və satirik jurnallar bilavasitə din pərdəsi altında min hoqqadan çıxan saxtakar ruhaniləri satira atəşinə tuturdu. Sovetlər dönəmində bunu İslam dininə qarşı yönəldilən bir silah kimi göstərmişdilər, əslində isə qə-

tiyyən belə deyildi. Münafiq din xadimlərinin avam xalqı aldatmasından, mövhumata, xurafata, fanatizmə sürükləməsindən qabaqcıl ziyalılarımız təngə gəlmişdi. Dövri mətbuat isə əli qələm tutan mütərəqqi insanlarımızın məhz qələmlərini bir növ neştərə çevirib saxtakarlara batırmaq imkanı verirdi ki, bəziləri bunu felyeton şəklində, bəziləri isə satirik şeir şəklində xalqa təqdim edirdi. "Dəng olmuşam" şeiri tək Bakıdakı fırıldaqçıları deyil, bütün Azərbaycandakı münafiqləri satira atəşinə tutur, onların iç üzünü o vaxtın dililə gözəl şəkildə bəyan edir. Təsadüfi deyil ki, şeirdə Qubanın, Şəkinin, Qaxın adları çəkilir, saxtakar "molla ordusu"na məhz İranda onlara maneçilik törədənlərin, "diplomatlar"ın olmamasını ümumiləşdirilmiş surət olan münafiq mollanın dili ilə göz önünə gətirir və onlara satira oxları atanların (qəzetçilərin) əlindən dəng olduğunu söyləyir.

Azərbaycan xalqının böyük oğlu, siyasi-ictimai xadim, maarifçi-publisist N.Nərimanov əsl İslam dini, müqəddəs Qurani-Kərim ilə bir sıra mollaların uydurduğu saxta din arasındakı fərqin olduqca anlaşıqlı dildə, sadə və aydın şəkildə izahını vermişdir. Dahi insan 1909-1911-ci illərdə qələmə aldığı "Tibb və islam" adlı əsərində İslam dininin cəmiyyət üçün nə qədər faydalı olduğunu göstərir, müqəddəs Qurani-Kərimin bir sıra mübarək ayələrinin tibb elminin inkişafı, insan orqanizminin sağlamlığı üçün nə qədər əhəmiyyətli olduğunu vurğulayırdı. Bundan əlavə, o, dövri mətbuatda çıxış edərkən bir sıra məqalələri ilə ruhaniləri qınayır, onları biganəliklərinə görə məzəmmət edir: "Qurani-Kərim bütün insanların səadəti üçün nazil olduğu halda, ruhani atalarımız xalqın cəhalətindən istifadə nöqtəsini tutub, avam xalqı əsarətdə saxlayırdılar. Xalq təkcə Qurani-Kərimin mənasını deyil, həm də beş vaxt qıldıqları namazın nədən ibarət olduqlarını bilmirdilər. Quranla xalq arasında keçilməsi mümkün olmayan bir divar tapıb, bu divarın daşı və kərpici müctəhid, şeyxülislam və müftilər olub, palçığı bu cür mollalar və mərsiyəxanlar idi. Xalq əyilib əllərini yuxarı qaldırıb Cənabi Allaha nəzir-niyaz etdikcə nə söyləyəcəklərini bilmirdilər. Yalnız xalq özünün Allaha yalvarmağını bilirdi. Mollalar xalqa yalnız təcvidi qaydada Quran oxudur, mənasını başa salmazdı. Əcəba görəsən Quranın mənasını ruhanilərimiz nə üçün gizləyirdilər" [4, s.175].

"Kəlniyyət" isə N.Nərimanovun qeyd etdiyi kimi, avam xalqın cəhalətindən sui-istifadə eləyən, müqəddəs Qurani-Kərimin əsl mənasını gizlədən "ruhanilərin" ifşası, xalqın gözünün açılması məqsədini güdürdü. Odur ki, bütün nömrələrində satira neştəri ilə fırıldaqçı mollaları dəlmə-deşik edirdi:

*"Kəlniyyət" aləmdə edib ğəlğələ*
*Basdı bütün mollaları çəngələ.*
*Gəl dəxi bundan sora sən keyf eylə,*
*"Zənbur"u əlhəmdü ki, bağlatdılar,*
*Qarğış edib "Bəhlul"u dağlatdılar.*
*Axırı ki, "Mollanı"da ağlatdılar.*
*Bəs haradan çıxdı bu bəd həvəslə*
*Saldı bizim canımıza vəlvələ.*
*Xalqa açıldı hamı əsrarımız,*
*Zahir olub felimiz,ətbarımız.*
*Meylimiz, amalımız, əfkarımız*
*Hiylə və məkr olmağı düşdü dilə.*
*Heyf keçən günlərə düşməz ələ.*
*Müftə yemək bəslər idi bizləri,*
*Almaz idik yağı, çayı, şəkəri,*
*Qatbaqat ət basmışdı peysəri,*
*Dönmüşdük boynu yoğun bir kələ*
*Axırı tutdu qıçımızdan tələ.*
*Səbr edərik ta ki, bu da bağlanar,*
*Tazələrin canı tutub od yanar*
*Şad olarıq onda bütün mollalar*
*Şur salarlar edərik həlhələ.*
*Vaqe olar eyn-əza zəlzələ.* [8, s.25]

**"Qaranquş"**

## Nəticə / *Conclusion*

Bu zəngin poetik ifadələrlə, sabiranə lövhələrlə qələmə alınmış satirik şeir də, öz növbəsində, "Kəlniyyət"də ədəbiyyat məsələlərinin nə qədər qabarıq şəkildə göz önünə gəldiyinin ən bariz nümunələrindən biridir.

Beləliklə, əminliklə demək olar ki, o dövrdə ədəbiyyat qəzet və jurnallar vasitəsilə xalqa təqdim olunur, eyni zamanda xalqın maariflənməsində, gözünün açılmasında, pisi-yaxşını bir-birindən seçməsində əvəzsiz rol oynayırdı.

## Ədəbiyyat / *References*


1. Axundov, N. Azərbaycan satira jurnalları (1906-1920). – Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1968. – 356 s.
2. Ədib və mühərrirlər cəmiyyətində "Bəsirət" qəzeti, № 157, 8 iyul 1917-ci il.
3. Əhmədov, B. XX əsr "Azərbaycan Ədəbiyyatı Tarixi". Dərslik, 3 cilddə, I cild. – Bakı: Elm və təhsil, 2011. – 957 s.
4. Əhmədov, N. "Nəriman Nərimanov" (həyatı, fəaliyyəti, pedaqoji və tibbi fikirləri). – Bakı: ABU, 2004.
5. Qarayev, N. "Azərbaycan ədəbi məclisləri XIX əsr". – Bakı: Elm, 1971. "Avtoreferat".
6. Məmmədov, X. XIX əsr Azərbaycan Ədəbiyyatı. – Bakı, 2006.
7. Mətbuat tarixi və publisistika məsələləri (məqalələr toplusu). AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. – Bakı: Ecoprint, 2020. – 168 s.
8. Vüqar Əhməd, Dilbər Rzayeva. "Kəlniyyət" satirik jurnalı yeni əlifbada (1912-1913). AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. – Bakı: PrintMe, 2022, – 370 s.
9. Vüqar Əhməd. "Azərbaycan Uşaq Ədəbiyyatı". – Bakı: "Müəllim" nəşriyyatı, 2006.
10. https://az.wikipedia.org/wiki/Seyid_H%C3%BCseyn_Sadiq
11. https://az.wikipedia.org/wiki/Seyid_Hüseyn_Sadiq
12. https://az.wikipedia.org/wiki/K%C9%99lniyy%C9%99t_(jurnal)
13. https://az.wikipedia.org/wiki/Hac%C4%B1_%C4%B0brahim_Qas%C4%B1mov
14. https://anl.az/down/meqale/xalqcebhesi/2014/sentyabr/392335.htm


## Вопросы литературы в журнале «Келният»


**Вугар Ахмед**
Доктор филологических наук, профессор
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: vuqar.ehmed.63@mail.ru



**Резюме.** В начале XX века для просвещения и обучения детей наши передовые интеллигенты А.А.Бакиханов, С.А.Ширвани, в продолжение традиции «образования наших детей», открывали школы нового типа, составляли учебники, облегчённые для понимания, легко усваиваемые нашими детьми. В этом деле нельзя забывать, что наша передовая интеллигенция, для развития умственных способностей наших детей, зарождения в них интереса к наукам и учёбе, создавала детские издания. «В начале XX века в Азербайджане наблюдается оживление в общественно-политической и культурной жизни: учреждения просвещения, школы и издательства были обращены лицом к народу. Появление таких сатирических журналов, как «Занбур», «Келният», «Бабаи-Амир», «Тути», «Бахлул», «Ляк-ляк», послужило началом зарождения детской прессы. Начавшие издаваться в начале века сборники «Дебистан» (1906-1908), «Рахбар» (1906-1907), «Мектеб» (1911-1920) открыли широкую дорогу для развития национальной детской литературы». Выступления Сеид Азима Ширвани в газетах «Экинчи», «Зия», «Кешкюль», в которых он пропагандировал просветительские идеи, послужили ещё лучшему ознакомлению с ним и зародили к нему любовь во всех регионах Азербайджана, занимавшего в то время более половины территории всего Кавказа. Мир Мохсун Навваб, несмотря на то, что писал на него пасквили, высоко оценивал его поэзию, а члены карабахского, гянджинского и поэтических меджлисов других регионов называли его «исполином тюркской поэзии после Мовланы Физули».


**Ключевые слова:** журнал, газета, детская печать, сатира, просветитель, публицистика